# Allahım qəbr əzabından, cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən və məsih dəccəlin fitnəsindən Sənə sığınıram

Əbu Hureyradan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dua edərdi: "Allahım qəbr əzabından, cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən və məsih dəccəlin fitnəsindən Sənə sığınıram". Muslimdə keçən ifadə isə belədir: "Sizlərdən biriniz sonuncu təşəhhüdü bitirdikdə dörd şeydən Allaha sığınsın: Cəhənnəm əzabından, qəbr əzabından, həyat və ölümün fitnəsindən və Məsih Əd-dəccəlin şərindən".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namazın sonunda təşəhhüddən sonra, salamdan əvvəl dörd şeydən Allaha sığınardı və onlardan Allaha sığınmağı bizə əmr etmişdir, bunlar: Birincisi: Qəbr əzabından. İkincisi: Cəhənnəm əzabından - bu isə Qiyamət günü olacaq. Üçüncüsü: Həyatın fitnəsindən - dünyanın haram şəhvətlərindən, onun azdıran şübhələrindən və ölümün fitnəsindən yəni ölüm anı, İslamdan və ya sünnədən uzaqlaşmaqdan və qəbir fitnəsindən - bu da iki mələyin sorğu sualıdır. Dördüncüsü: Axır zamanda zühur edəcək Dəccalın fitnəsindən, çünki Allah bəndələrini bununla imtahan edəcək. Böyük fitnəsinə və azğınlığına görə onu xüsusilə qeyd etmişdir.

https://www.sunnah.global/hadeeth/az/show/3103